**Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair**

# MÜVƏQQƏTİ QAYDALAR

## 1. Ümumi müddəalar

1.1. Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsilalanların (bundan sonra - tələbələrin) köçürülməsi, tələbələr sırasından xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair müvəqqəti Qaydalar (bundan sonra - Qaydalar) "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2011-ci il tarixli 9 nömrəli qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 3.9-cu bəndinə uyğun hazırlanmış və tələbələrin bir ali təhsil müəssisəsindən və ya təhsil proqramından (ixtisasdan) digərinə köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsi məsələlərini tənzimləyir.

1.2. Bu Qaydalar tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının bütün ali təhsil müəssisələrinə (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) şamil edilir.

1.3. Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin bir ali təhsil müəssisəsindən və ya təhsil proqramından (ixtisasdan) digərinə köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsi məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 mart 2001-ci il tarixli 56 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının təhsil almaq üçün xarici ölkələrə göndərilməsi və xarici ölkə vətəndaşlarının Azərbaycanın təhsil müəssisələrində təhsil almaları haqqında Əsasnamə" ilə tənzimlənir.

1.4. Ali təhsilin bakalavriat səviyyəsində tələbələrin bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi, ixtisasının və (və ya) təhsilalma formasının dəyişməsi, tələbələr sırasına bərpası və akademik məzuniyyətdən qayıtması qış və yay tətili dövründə həyata keçirilir.

1.5. Ali təhsilin magistratura səviyyəsində tələbələrin bir ali təhsil müəssisəsindən və ya ixtisasdan digərinə köçürülməsinə yol verilmir. Həmin səviyyədə təhsil alan tələbələr yalnız təhsilalma formasını dəyişmək, xaric olunanlar isə öz ixtisası üzrə əvvəl təhsil aldığı ali təhsil müəssisəsinə bərpa olunmaq hüququna malikdirlər. Bu prosedurlar 1.4-cü bəndində göstərilən müddətdə həyata keçirilir.

1.6. Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət sifarişi əsasında təhsilalanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

1.7. Akkreditə olunmayan xarici ölkə ali təhsil müəssisələrinin tələbələrinin Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə köçürülməsinə və ya bərpa olunmasına yol verilmir.

1.8. Tabeliyindən və mülkiyyət növündən asılı olmayaraq bakalavriat səviyyəsində tələbələrin bir ali təhsil müəssisəsindən və ya ixtisasdan digərinə köçürülməsi, bakalavriat və magistratura səviyyələrində xaric olunmuş şəxslərin tələbələr sırasına bərpası (əvvəl təhsil aldıqları ali təhsil müəssisəsinə öz ixtisasları üzrə bərpası istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir.

1.9. Dövlət adından təsisçi funksiyalarını həyata keçirən digər nazirlik, dövlət komitəsi və ya idarələrin (bundan sonra - dövlət qurumu) tabeliyində olan dövlət ali təhsil müəssisələrinə tələbələrin köçürülməsi və bərpası tabe olduqları dövlət qurumunun və Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir.

1.10. Ali təhsil müəssisəsi ilə bağlanmış müqaviləyə əsasən tələbənin təhsil haqqını hər hansı fiziki və ya hüquqi şəxs ödədiyi təqdirdə, başqa ali təhsil müəssisəsinə və ya ixtisasa köçürülmə həmin şəxslə yazılı qaydada razılaşdırılır.

## 2. Tələbələrin köçürülməsi

2.1. Ali təhsilin bakalavriat səviyyəsində tələbələrin ixtisasını və (və ya) təhsilalma formasını dəyişməsi, bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi birinci semestr başa çatdıqdan sonra həyata keçirilir.

2.2. İxtisasın dəyişməsi və ya bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi tələbənin köçürülmək istədiyi ali təhsil müəssisəsinə müvafiq təhsil proqramı (ixtisas) üzrə qəbul planı (akkreditasiya haqqında sertifikat) ilə müəyyən edilmiş tələbələrin say həddi gözlənilməklə aparılır.

2.3. Ölkə daxilində bakalavriat səviyyəsində tələbələrin bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi o şərtlə aparıla bilər ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (bundan sonra - TQDK) tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmasın. Bu zaman tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar TQDK tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır[1].

2.4. Xarici ölkə ali təhsil müəssisələrindən köçürülmə məsələsinə baxılarkən tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələri reytinqlərində[2] yer alması, TQDK tərəfindən keçirilən qəbul imtahanlarında iştirak etdiyi halda tələbənin topladığı balın həmin ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmaması və tələbənin akademik göstəriciləri nəzərə alınır.

2.5. Bakalavriat səviyyəsində xarici ölkə ali təhsil müəssisəsində təhsil alan tələbənin ailəsi və ya özü təhsil aldığı müddətdə ailə qurması ilə əlaqədar Azərbaycan Respublikasına köçdükdə bu Qaydaların 2.4-cü bəndində qoyulan tələblər, habelə tələbə akademik məzuniyyətdən qayıtdıqda əvvəl təhsil aldığı ali təhsil müəssisəsində həmin ixtisas üzrə kadr hazırlığı aparılmadıqda bu Qaydaların 2.3-cü bəndinin birinci cümləsində qoyulan tələblər ali təhsil müəssisəsini və ya ixtisasını dəyişməsi zamanı nəzərə alınmır.

---

[1] ***Bu zaman II və III ixtisas qruplarında müəyyənləşdirilmiş "tarix və coğrafiya müəllimliyi", "tarix müəllimliyi" və "tarix" ixtisasları öz aralarında, eləcə də II ixtisas qrupunda müəyyənləşdirilmiş "beynəlxalq münasibətlər" və "regionşünaslıq" ixtisasları isə III ixtisas qrupuna daxil olan digər ixtisaslarla (mədəniyyət və incəsənət ixtisasları istisna olmaqla) uyğun hesab edilir.***

[2] ***Times Higher Education World University Rankings (http://www.timeshighereducation.co.uk/world-university-rankings/2013-14/world-ranking***
***Quacquarelli Symonds – QS World University Rankings (http://www.topuniversities.com/university-rankings),***
***Academic Ranking of World Universities - Shanghai Ranking (http://www.shanghairanking.com/ARWU2013.html)***

2.6. Tələbənin təhsil aldığı ali təhsil müəssisəsində eyni ixtisas üzrə təhsilalma formasını dəyişməsi onun ərizəsi əsasında (qiyabi təhsilalma formasından əyaniyə keçirilərkən çağırış yaşı çatmış oğlanlar üçün hərbi xidmətdən möhlət hüququ barədə arayış əlavə olunmaqla) rektorun əmri ilə həyata keçirilir. Bu halda oğlanların hərbi uçot sənədlərində müvafiq qeydlər aparılır.

2.7. Digər ali təhsil müəssisəsinə və ya ixtisasa köçürülmək istəyən tələbə aşağıdakı sənədləri təqdim etməklə köçürülmək istədiyi ali təhsil müəssisəsinə ərizə ilə müraciət edir:

2.7.1. tələbənin təhsil müddətində fənlər üzrə topladığı kreditləri və qiymətləri (hərf və balla) özündə əks etdirən sənəd (bundan sonra akademik transkript);

2.7.2. ali təhsil müəssisəsinə qəbul olunarkən topladığı bal haqqında sənəd;

2.7.3. Bu Qaydaların 2.5-ci bəndində göstərilən səbəblərə görə köçürülmək istəyənlər - müvafiq təsdiqedici sənədlər;

2.7.4. dövlət xətti ilə təhsil alanlar istisna olmaqla, xaricdə öz hesabına təhsil alan tələbələr - təhsil aldıqları dövlətin qanunvericiliyinə uyğun legallaşdırılmış akademik transkript və təhsil aldığı müddətdə gediş-gəlişi təsdiq edən rəsmi sənədlər.

2.8. Tələbənin köçürülmək istədiyi ali təhsil müəssisəsində onun təqdim etdiyi sənədlər "Tələbə-məzun" dövlət elektron məlumat sistemi ilə tutuşdurulur, təhsil aldığı xarici ölkə ali təhsil müəssisəsinin həmin ölkədə akkreditə olunması və dünya reytinq cədvəllərindəki yeri yoxlanılır, habelə təhsil aldığı ali təhsil müəssisəsinə müvafiq sorğular göndərilməklə köçürülmə üçün əsasların olub-olmadığı müəyyənləşdirilir. Köçürülmə üçün əsas olmadığı hallarda ərizəçiyə köçürülməkdən imtina barədə cavab verilir. Tələbələrin köçürülməsi mümkün sayıldığı hallarda ali təhsil müəssisəsi onların siyahısını (müvafiq sənədlər[3] əlavə olunmaqla) Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edir.

2.9. Təhsil Nazirliyi təqdim edilmiş sənədləri yoxlayır və müsbət rəy olduğu halda tələbənin bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi məsələsini Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya ilə razılaşdırır.

---

[3] ***Tələbənin köçürülməsini əsaslandırdığı sənədlər (nikah şəhadətnaməsi, xəstəlik haqqında arayış və s.) və fənlər üzrə topladığı kreditlər barədə arayış (akademik transkript).***

2.10. Müsbət qərar qəbul olunduğu təqdirdə Təhsil Nazirliyi tələbənin təhsil aldığı ali təhsil müəssisəsinə müvafiq məktubla akademik arayış blankını, köçürülmək istədiyi ali təhsil müəssisəsinə isə öz razılıq məktubunu göndərir.

2.11. Tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin rektoru Təhsil Nazirliyinin məktubunu aldıqdan sonra 2 (iki) iş günü müddətində tələbənin başqa ali təhsil müəssisəsinə köçürülməsi ilə bağlı xaric olunması haqqında əmr verir və akademik arayışla birlikdə tələbənin şəxsi işini onun köçürüldüyü ali təhsil müəssisəsinə göndərir. Şəxsi iş ali təhsil müəssisəsi tərəfindən tələbənin özünə və ya etibarnamə əsasında onun səlahiyyətli nümayəndəsinə verilə bilər.

2.12. Tələbənin köçürüldüyü ali təhsil müəssisəsinin rektoru Təhsil Nazirliyindən razılıq məktubu və tələbənin şəxsi işi[4] daxil olduqdan sonra 2 (iki) iş günü müddətində akademik transkriptlə köçürüldüyü ixtisasın tədris planındakı fənlər üzrə kreditləri müqayisə edir və uyğun olanları nəzərə alaraq, onun tələbə kontingentinə daxil edilməsi barədə əmr verir.

## 3. Tələbələr sırasından xaric edilmə

3.1. Tələbə aşağıdakı hallarda ali təhsil müəssisəsindən xaric edilir:

- öz arzusu ilə;
- başqa ali təhsil müəssisəsinə köçürüldükdə;
- ali təhsil müəssisəsinin daxili intizam qaydalarını kobud şəkildə pozduqda;
- müəyyən kateqoriya xəstəliklərlə əlaqədar səhhətinə görə (həkim-məsləhət komissiyasının arayışına əsasən);
- növbəti tədris ilinə qeydiyyatdan keçməyib semestrin sonuna qədər ali təhsil müəssisəsi ilə əlaqə saxlamadıqda.

3.2. Ali təhsil müəssisələrindən xaric edilmiş şəxslər hərbi xidmətə çağırışdan möhlət hüququnu itirirlər. Ali təhsil müəssisəsinin rektoru tərəfindən həmin şəxslərin

[4] ***Əvvəlki təhsil səviyyəsi barədə sənəd, qəbul və xaric olunma, təhsili barədə əmrlərdən çıxarışlar və blankı Təhsil Nazirliyi tərəfindən verilən dövlət nümunəli akademik arayış.***

xaric olunması barədə onların hərbi uçotda olduqları dövlət qurumlarına bir həftə müddətində rəsmi məlumat verilir.

3.3. Tələbələr sırasından xaric edilmiş şəxsə akademik arayış və təhsil haqqında sənədin əsli verilir, həmin sənədin surəti və xaric olunma haqqında əmrdən çıxarış isə ali təhsil müəssisəsində tələbənin şəxsi işində saxlanılır.

## 4. Tələbələr sırasına bərpa

4.1. Ali təhsil pilləsinin hər iki səviyyəsində tələbələr sırasından xaric olunmuş şəxslər xaric olunma vaxtından bir semestr keçdikdən sonra ali təhsil müəssisəsinə bərpa olunmaq hüququna malikdir.

4.2. Azərbaycan Respublikasının ali təhsil müəssisəsindən xaric olunmuş şəxsin həmin ali təhsil müəssisəsinə öz ixtisası üzrə bərpası onun ərizəsi əsasında bu Qaydaların 1.4-cü bəndində göstərilən müddətdə ali təhsil müəssisəsinin rektorunun əmri ilə həyata keçirilir. Bütün digər hallarda bu Qaydaların 1.7 - 1.10-cu və 2.2 - 2.8-ci bəndlərinin tələbləri gözlənilməklə tələbənin bərpası Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir. Bərpa barədə ərizəyə akademik arayış və əvvəlki təhsil haqqında sənədin əsli (əgər xaric edildiyi ali təhsil müəssisəsinə bərpa olunmursa) əlavə edilir.

4.3. Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil alıb sonradan səhhətinə görə xaric olunan, eləcə də hər hansı bir səbəbdən xarici ölkə ali təhsil müəssisələrindən tələbələr sırasından xaric edilmiş şəxslər ixtisasına uyğun olaraq Azərbaycan Respublikasının müvafiq mülki ali təhsil müəssisələrinə bərpa oluna bilərlər. Onların bərpası bu Qaydaların 1.4-cü bəndində göstərilən müddətdə bu Qaydaların 2.7-ci bəndində göstərilən sənədləri müvafiq mülki ali təhsil müəssisəsinə təqdim etməklə, ali təhsil müəssisəsinin müraciəti əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir.

4.4. Bərpa olunmuş tələbələrin şəxsi işi bərpa edilir. Bu şəxsi işə rektorun adına yazılmış ərizə, bərpa olunma haqqında əmrdən çıxarış, digər ali təhsil müəssisəsindən xaric edilmiş tələbələrin şəxsi işinə isə habelə akademik arayış və xaric olunma haqqında əmrdən çıxarış əlavə edilir.

## 5. Akademik məzuniyyətin verilməsi

5.1. Tələbəyə akademik məzuniyyət aşağıdakı hallarda və müddətə verilir:

5.1.1. müddətli həqiqi hərbi xidmətə çağırıldıqda - xidmət müddətinə;

5.1.2. ailə vəziyyətinə görə - 2 il müddətinədək;

5.1.3. səhhətinə görə - həkim-məsləhət komissiyasının arayışında göstərilən müddətə;

5.1.4. sosial məzuniyyətə çıxdıqda - qanunvericiliklə müəyyən olunmuş müddətə;

5.1.5. müxtəlif proqramlar əsasında xarici ölkələrə təhsil almağa getdikdə - proqramda göstərilən müddətə.

5.2. Akademik məzuniyyətdən qayıdan şəxslər tədris prosesinə növbəti semestrdən buraxılırlar.